UOT 94’19/…

AYNURƏ MƏMMƏDOVA
Bakı Dövlət Universitetinin müəllimi, t.ü.f.d.
ORCİD İD: 0000-0002-5835-4798
aynura_mammedova@bk.ru

NƏRMİN ƏHMƏDLİ
Bakı Dövlət Universitetinin Slavyan ölkələri tarixi kafedrasının doktorantı
ORCİD İD: 0009-0003-1541-7386
ehmedlinermin1@gmail.com

RUSİYA FEDERASİYASINA QARŞI TƏTBİQ OLUNAN SANKSİYALAR (2022-2024)

DOI: https://doi.org/10.36719/2708-065X/110/140-144

Məqalədə Rusiya-Ukrayna müharibəsi dövründə Qərb dövlətlərinin bu müharibəni sonlandırmaq və Rusiyanı danışıqlara sövq etmək üçün həm koalisiya, həm də ayrı şəkildə Rusiyaya qarşı sanksiyalar tətbiqindən bəhs olunur. Bu sanksiyalar Rusiyanın iqtisadiyyatına müəyyən zərərlər vurmuşdur. Həmçinin bu sanksiyalar Rusiyanın həm daxili, həm xarici siyasətinə də güclü təsir göstərmişdir. Bu səbəbdən Rusiya Federasiyasına qarşı sanksiyalar beynəlxalq münasibətlər sistemində böyük müzakirə mövzusudur. Bu məqalənin əsas məqsədi məhz bu sanksiyaların xüsusiyyətlərini və bunlara qarşı Rusiyanın gördüyü tədbirləri araşdırmaqdır.

Açar sözlər: Rusiya Federasiyası, Avropa İttifaqı, ABŞ, sanksiyalar, iqtisadiyyat.

Giriş. Rusiya Federasiyası 2014-cü ildə Krımı və Ukraynanın şərqini işğal edəndə Qərb Rusiyaya qarşı sanksiyalar qəbul etmişdir. Buna baxmayaraq, Rusiyaya qarşı ümumi reaksiya zəif və qətiyyətsiz olmuşdur. 24 fevral 2022-ci ildə Rusiyanın Ukraynanı işğal etməyə başlaması Qərbi daha çox sanksiyalar qəbul etmək üçün səfərbər etdi. Və Rusiyanı dünyanın ən çox sanksiyaya məruz qalan ölkəsinə çevirdi. Rusiyanın cavabı isə bütün Avropa İttifaqı (Aİ) ölkələri, ABŞ, Kanada, Yaponiya və sair ölkələri Rusiyaya qarşı dost olmayan ölkələrin siyahısına qatmaq oldu. Sanksiyalara məruz qalan Rusiya isə bunların təsirini azaltmaq üçün müəyyən fəaliyyət istiqaməti seçmiş oldu.

Rusiya Federasiyasına qarşı tətbiq edilən sanksiyalar. Sanksiyalar Rusiyanın əhəmiyyəti texnologiyalara və bazarlara çıxışdan məhrum etmək və onun müharibə aparmaq imkanlarını əhəmiyyətli dərəcədə azaltmaq məqsədi daşıyırdı. Hətta sanksiyalar müəyyən şəxslərə qarşı da yönəlmişdir. Belə ki, 2023-cü ilin ilk aylarında 1800 fiziki və hüquqi şəxsə şamil edilmişdir. Həmçinin 2023-cü ilin iyun ayında Aİ daha 71 fiziki şəxsə və 33 quruma sanksiya tətbiq etmişdir. Müəyyən şəxslərə qarşı sanksiyalar ölkəyə giriş qadağaları və aktivlərin dondurulmasından ibarətdir [8, s.54]. Dondurulmuş Rusiya Mərkəzi Bankının 33 milyard dollardan çox aktivlərinin üçdə ikisi Aİ-də, xüsusilə, Belçikada yerləşir [11].

İqtisadi sanksiyalar nəticəsində Qərb ölkələri Rusiyaya bir sıra idxal və ixrac məhdudiyyətləri qoymuşdur. Qadağan olunmuş məhsulların siyahısı elə müəyyən edilmişdir ki, sanksiyaların Rusiya iqtisadiyyatına mənfi təsirini maksimum dərəcədə artırsın, eyni zamanda Aİ şirkətləri və vətəndaşları üçün arzuolunmaz təsirləri məhdudlaşdırsın. Müharibə başlayandan sonra Rusiya əhalisini nəzərə alaraq bir sıra istehlak üçün nəzərdə tutulan məhsulları, o cümlədən tibbi, əczaçılıq və kənd təsərrüfatı məhsulları ixrac və idxal məhdudiyyətlərindən çıxarılmışdır. 2022-ci ilin fevral ayından etibarən Aİ Rusiyaya 43,9 milyard avro dəyərində ixracı və Aİ-yə 91,2 milyard avro dəyərində idxalı qadağan etmişdir. Hətta Aİ digər həmfikir tərəfdaşları ilə əməkdaşlıq edərək, Ümumdünya Ticarət Təşkilatının (ÜTT) Rusiyaya qarşı ən əlverişli ölkə maddəsinin tətbiqini dayandırmaq hüququnu özündə saxlayan bir bəyannamə qəbul etdi. Aİ Belarusiyanın ÜTT-ə daxil olması ilə bağlı bütün işləri dayandırmışdır. Aİ tərəfindən 4 iyun 2022-ci il tarixi ilə mühasibat uçotu xidmətləri, vergi, biznes, idarəetmə məsləhətləri və ictimaiyyət ilə əlaqəli xidmətlər Rusiya üçün qadağan etdilmişdir. Həmçinin 2022-ci ilin dekabrından Aİ qurumları tərəfindən reklam, bazar və rəy araşdırması xidmətlərinin göstərilməsi, məhsulların sınaqdan keçirilməsi və texniki baxış xidmətlərinin göstərilməsi qadağası qüvvəyə mindi [5, s.102].

Aİ tərəfindən xam neft üçün qadağa 5 dekabr 2022-ci il tarixindən, emal olunmuş neft məhsulları üçün isə 5 fevral 2022-ci il tarixindən qüvvəyə minmişdir. Sanksiyalar 2022-ci ilin sonundan etibarən Rusiya neftinin Avropaya idxalının demək olar ki, 90%-ni əhatə edirdi [5, s.103]. Həmçinin Rusiyanın mayeləşdirilmiş təbii qaz (LNG) layihələrinə investisiyalar qoymaq qadağan edilmişdir. Rusiyanın LNG-in daşınması üçün Aİ portlarının istifadəsinə qadağa qoyulmuşdur [10]. Lakin bəzi tədqiqatçıların fikrincə, Rusiya qaz üçün yeni müştərilər tapmağı getdikcə çətinləşəcəkdir. Çünki boru kəmərlərinin çoxu qərbə yönəlmişdir və asanlıqla yenidən təşkil edilə bilməz [1, s.112].

Rusiya və Belarusiya avtomobil daşıyıcılarının Aİ ölkələrinə daxil olmasına icazə verilmir. Bir məsələni də qeyd etmək lazımdır ki, 2022-ci ilin fevralından bütün Rusiya aviadaşıyıcılarına Aİ ölkələrinin hava limanlarına daxil olmağı və onun hava məkanından üçmağı qadağan etmişdir. Bu o deməkdir ki, Rusiyada və ya başqa yerdə qeydiyyatdan keçmiş, lakin Rusiya qurumu tərəfindən icarəyə götürülmüş təyyarələr heç bir Aİ ölkələrinin hava limanına enə və ya Aİ ölkələri üzərindən keçə bilməz. Qadağa biznes təyyarələri kimi şəxsi təyyarələrə də şamil edilirdi.Sanksiyalar nəticəsində artıq Rusiya aviaşirkətləri təyyarə, ehtiyat hissələr və ya avadanlıqları ala bilməzdi. Onlara lazimi təmir və texniki baxış keçirməyə də icazə verilmir [5, s.103, 107].

Aİ sanksiyaları demək olar ki, ABŞ-la əməkdaşlıq çərçivəsində tətbiq etmişdir. Aİ-nin sanksiyaları ABŞ-ın tətbiq etdiyi sanksiyalarına bənzəyir, lakin onlar eyni deyil. Belə ki, Aİ-nin sanksiyaları müəyyən müddətə tətbiq edilir. Və sanksiyaların tətbiqi yekdil rəy tələb edir. Digər maraqlı cəhət isə odur ki, geniş sanksiya koalisiyalarının mövcudluğudur. Bu Qərbin Rusiyaya qarşı sanksiyalarının əsas xarakterik cəhətidir. Xüsusilə, bir məsələni qeyd etmək lazımdır ki, 2022-ci ilə qədər Qərb ölkələrinin koalisiya halında sanksiyaları tətbiq etməsi nadirən baş verən vəziyyət idi.

ABŞ-da Rusiyaya qarşı bir sıra sanksiyalar tətbiq etmişdir. Bunlardan 14024 nömrəli sanksiya Rusiya Federasiyasının dövlət qurumları və vəzifəli şəxslərə (onların həyat yoldaşları və aileləri), texnologiya sektorunda, Rusiya iqtisadiyyatının müdafiə və əlaqəli material sektorunda və ya iqtisadiyyatın digər sektorlarında fəaliyyət göstərən şəxslərə qarşı sanksiyaların tətbiqinə icazə verilirdi. Sonradan ABŞ-ın Xəzinədarlıq Departamenti müəyyən etdi ki, 14024 nömrəli sanksiya Rusiya iqtisadiyyatının bəzi sahələrinə də şamil edilməlidir. Məsələn: elektronika, dənizçilik, mədənçıxarma, memarlıq, mühəndislik və s. [9].

14114 Nömrəli sanksiyaya əsasən, xarici maliyyə qurumları Rusiya Federasiyası iqtisadiyyatının texnologiya, müdafiə, tikinti, istehsal sektorlarında fəaliyyət göstərən şəxslər üçün əhəmiyyətli əməliyyatlar apararsa və ya onlara kömək edərsə, ABŞ maliyyə sisteminə girişdən məhrum edilə bilərlər. 8 Mart 2022-ci ildə 14066 nömrəli sanksiyaya görə, Rusiya mənşəli neft, neft məhsulları, içkilər və müəyyən edilmiş digər məhsulların Birləşmiş Ştatlara idxalını qadağan edən qərar qəbul edilmişdir [2, s.9].

24 fevral 2023-cü ildə ABŞ Prezidenti Bayden Rusiya alüminimumuna və əksər Rusiya metal və metal məhsullarına, həmçinin kimyəvi maddələr və minerallar daxil olmaqla əlavə məhsullara olan rüsumları da artırmaq üçün iki Bəyannamə vermişdir. Bayden 24 aprel 2024-cü ildə "Ukraynalılar üçün iqtisadi rifah və imkanlar aktı"nı imzalamışdır. Bu akt Prezidentə Ukraynaya kompensasiya və yardım təmin edilməsi məqsədi ilə ABŞ-ın yurisdiksiyasına tabe olan və bloklanmış və ya faktiki olaraq immobilizasiya edilmiş Rusiyanın suverən aktivlərini "müsadirə etmək və ya təhvil vermək" səlahiyyətini vermişdir. Akta görə ABŞ Prezidenti Rusiya ilə Ukrayna arasında hərbi əməliyyatların dayandırıldığını və ya Rusiyanın "hüquqlu beynəlxalq mexanizimdə iştirak etdiyini" təstiq edənə qədər səlahiyyətli hallar istisna olmaqla, Rusiyanın suverən aktivlərinin sərbəst buraxılmasını qadağan etmişdir [2, s.11].

Sanksiyalar hərbi sahəni də əhatə etmişdir. Məsələn: 2022-ci ilin dekabrında Qərb bəzi hərbi texnikanın Rusiya Federasiyasına və İrana ixracını qadağan etməyə razılaşmışdır. Həmçinin dünyanın aparıcı yarımkeçirici istehsalçısı olan Tayvan dronlarda və hərbi texnikada istifadə oluna bilən hesablama çiplərinin Rusiyaya ixracını məhdudlaşdıracağını bildirmişdir [11].

Yuxarıda qeyd olunanlardan aydın olur ki, Rusiyaya istər Avropa İttifaqının, istərsə də ABŞ-ın tətbiq etdiyi sanksiyalar iqtisadiyyatın bir çox sferasına təsir etməyə yönəlmişdir. Lakin sonralar aydın olmuşdur ki, Rusiyaya qarşı sadəcə sanksiyalar irəli sürməklə onu müharibədən kənarlaşdırmaq mümkün deyil. Bunun səbəbi isə Rusiyanın müharibə başlamazdan öncə və həmçinin müharibə dövründə apardığı ehtiyat tədbirləridir ki, biz aşağıda bu məsələlər ilə bağlı geniş şəkildə məlumat verəcəyik.

Rusiyanın sanksiyalardan gələcək zərərin qarşısını almaq üçün həyata keçirdiyi tədbirlər. Əlbəttə ki, Rusiya da bu sanksiyaların zərərindən qaçmaq üçün müəyyən addımlar atmışdır. Məhz bu addımlar sayəsində Rusiya Federasiyası Ukrayna ilə müharibəni sanksiyalara rəğmən davam etdirmişdir.

Moskva valyuta ehtiyatlarını gücləndirməklə və Çin Xalq Respublikası ilə dostluq etməklə xarici maliyyə təziqlərinə tab gətirmək üçün illər əvvəl hazırlaşmağa başlamışdır. Rusiya hökuməti iqtisadiyyatı izolyasiya etmək və Qərbin gözlənilən cavablarının təsirlərini yumşaltmaq üçün ehtiyatlı maliyyə və pul planları hazırlamışdır. Rusiyanın dözümlülüyünə tövhə verən əsas amillərdən biri Mərkəzi Bank tərəfindən mühafizəkar fiskal siyasətinin həyata keçirilməsidir. Mərkəzi Bank inflyasiyanın qarşısını almaq və rublu dəstəkləmək üçün işğaldan dərhal sonra faiz dərəcələrini 20%-ə qaldırmışdır. Digər tədbirlərdən biri də hökumət xərclərinə nəzarət olunması idi. Davamlı qənaət tədbirləri borc səviyyəsini nəzarət altında saxlamağa kömək edirdi. Lakin dövlət investisiyaları infrastrukturun inkişafı və ya sosial rifah və s. kimi məsələlərə ciddi təsir göstərərək ölkə daxilində potensial olaraq sosial-iqtisadi gərginliklərə səbəb olarsa, ləng artım riski də yaradır. Buna görə də əsas investisiya sahələrinə maneçilik törətmədən xərclərə nəzarət vacibdir. Rusiyanın fiskal sabitliyi gəlir əldə etmək üçün karbohidrogen ixracından çox asılıdır. Hökumət qaz və neftin qiymətini elə müəyyən etmişdir ki, büdcədə tarazlıq yaransın. Çünki qiymətdə həddən artıq artım və ya azalma problemlərə səbəb ola bilər [3, s.2].

Digər önəmli məsələ isə rublun göstəricisidir. Müharibə başladıqdan sonra kəskin ucuzlaşma ilə bağlı ilkin qorxulara baxmayaraq, qismən Mərkəzi Bankın müdaxilələri və mühafizəkar pul siyasəti sayəsində rubl nisbətən sabit qalmışdır. Habelə vətəndaşların rublu xarici valyutaya dəyişməsinə qoyulan məhdudiyyətlər xarici investisiyaların və s. azalmasına baxmayaraq, valyutanın çökməsinin qarşısını almışdır [6].

Müharibə başlayandan sonra Rusiya öz mal və xidmətləri üçün, əsasən, Asiyada alternativ bazarlar tapa bilmişdir. Bu, həmçinin yerli sənayelərin inkişafında, idxaldan asılılığın azaldılmasında və özünü təmin etmək də mühüm rol oynamışdır. Məsələn: Dünya İqtisadi Formunun verdiyi məlumata görə, Çinin və Hindistanın Rusiyadan neft alışı xeyli artmışdır. Çin Ümumi Gömrük İdarəsindən rəsmi məlumatları Rusiya idxalının 2022-ci ildə 114 milyard dollara qədər artımını göstərmişdir. Eyni mənbə, 2022-ci ildə Çinin neft idxalında 8,2% artım olduğunu bildirmişdir [4, s.3]. Lakin bəzi tədqiqatçıların fikrincə, Rusiya qaz üçün yeni müştərilər tapmağı getdikcə çətinləşəcəkdir. Çünki boru kəmərlərinin çoxu qərbə yönəlmişdir və asanlıqla yenidən təşkil edilə bilməz [1, s.112].

Hökumət Rusiyanın xaricilərin üstünlük təşkil etdiyi maliyyə sektorundan qopmasının nəticələrini yüngülləşdirmək üçün bir sıra strateji tədbirlər həyata keçirmişdir. Xüsusilə, ödənişlər üçün yuanın istifadəsi də bu məsələdə mühüm rol oynamışdır [3, s.3].

Ümumiyyətlə, bir məsələni qeyd etmək lazımdır ki, Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra Rusiyanın Mərkəzi Asiya, Çin və s. ölkələrlə əlaqələri,əsasən də, iqtisadi sahədə genişlənmişdir ki, bu da Qərbin sanksiyalarının Rusiyaya olan təsirini yüngülləşdirmişdir.

Bunu da qeyd etmək lazımdır ki, Rusiyanın iqtisadiyyatının zəifləməsinin qarşısını alan amillərdən biri də "Qazprom"un fəaliyyətidir. Belə ki, Rusiya Federasiyasının Maliyyə Nazirliyinin dərc etdirdiyi məlumatlar göstərir ki, 2022-ci ilin ikinci yarısında Rusiya ixracatının aşağı düşməsinə baxmayaraq, bütövlükdə həmin il üçün büdcə gəlirləri 2,5 trilyon rubl təşkil etmişdir ki, bu da 2021-ci ilə nisbətən yüksəkdir. Bu, əsasən, "Qazprom"un üzərinə qoyulan yükün artması ilə mümkün olmuşdur. "Qazprom" dövlət xəzinəsinə ən böyük tövhə verən qurumdur. Çünki bu şirkət federal və regional büdcələrə 1,2 trilyon rubl əlavə birdəfəlik mədən vergisi daxil olmaqla ödəmiş və ümumilikdə 5 trilyon rubldan çox (demək olar ki, 73 milyard ABŞ dolları) ödəmişdir. Bu da büdcəyə əlavə 600 milyard rubl daxil olmasına səbəb olmuşdur [5, s.113]. Qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, "Qazprom"dan ödənişlər neft-qaz sektorundan azalan müntəzəm gəlirləri əvəz etmişdir.

Sanksiyalara baxmayaraq, Rusiyada bəzi sahələrdə inkişafda mövcud idi. Məsələn: İnşaat sənayesində də yaxşı nəticələr əldə olunmuşdur. Belə ki, 2022-ci ildə bu sektorda işin dəyəri rəsmi olaraq 5% artmışdır. Hökümətə dəstək proqramları, güzəştli ipoteka kreditləri, köhnə yaşayış evlərinin təmiri, bu nəticəyə qəti şəkildə töhfə verdi. Bütün tikinti işlərinin demək olar ki, 8%-i dövlət fondları ilə maliyyələşdirilmişdir. Büdcə xərclərinin əhəmiyyətli dərəcədə (təxminən 5% -i) artmasında 2022-ci ildə Rusiyada hasilatının davamlı təsiri də var idi. Digər inkişafı biz kənd təsərrüfatında da görə bilərik.

Belə ki, 2022-ci ildə kənd təsərrüfatı istehsalının dəyəri 10% -dən çox artmışdır. Həmin ildə 154 milyon ton taxıl istehsal edilmişdir. Kənd təsərrüfatının inkişafı daxili bazarda qiymətlərin düşməsi ilə nəticələndi [5, s108].

Bir məsələni də qeyd etmək lazımdır ki, sanksiyaların tətbiq edərkən Qərb güman edirdi ki, Moskvaya vurmağa hazırladığı əzab Rusiya rəhbərliyini Ukrayniyanın işğalını davam etdirməkdən çəkindirə biləcək. Hesablama Rusiyanın rasional hərəkət edəcəyi və iqtisadi nəticələrinin çox ağır olacağı üçün öz qoşunlarını Ukrayna sərhədlərindən çıxaracağı fikrinə əsaslanırdı. Əslində ilk əvvəl Qərb Ukraynanın Kreml üçün əhəmiyyətini lazımınca dəyərləndirmirdi. Təhdidlərin etibarlılığını həddən artıq qiymətləndirmişdir. Qərb təkcə sanksiyalar ilə effektiv nəticə əldə edəcəyinə inanırdı. Lakin Rusiya gözləniləndən daha yüksək xərclərə dözməyə hazır idi. Qərb liderləri arasında Moskvanın məğlub olub-olmaması və ya nəzarət altına alınması ilə bağlı fikir ayrılıqları praktiv siyasətdən daha çox ayrı-ayrı və reaktiv siyasətə gətirib çıxarmışdır. Və aydın olmuşdur ki, təkcə sanksiyaların Rusiyanı işğaldan çəkindirə biləcəyinə dair yüksək gözləntilərin yersizdir. Hərbiləşmiş münaqişədə iqtisadi tədbirlə uzunmüddətli maliyyə və texnoloji imkanlarını məhdudlaşdıran mühüm amil ola bilər, lakin onlar müharibəni qısa müddətdə dayandırmaq üçün zəif təchiz olunmuşdur [7, s.1-5].

Nəticə. Qərb ölkələri, xüsusilə ABŞ, Avropa İttifaqı Rusiyaya qarşı 2014-cü ildə Krımın ilhaqından sonra sanksiyalar tətbiq etməyə başlamış, 2022-ci ildə Ukraynaya genişmiqyaslı hərbi müdaxilədən sonra isə bu məhdudiyyətləri daha da sərtləşdirmişdir. Sanksiyalar enerji sektoru, maliyyə qurumları, texnologiya tədarükü, ticarət və fərdi şəxslərə qarşı məhdudiyyətləri əhatə etmişdir. Rusiya isə bu sanksiyaların zərrərlərindən yayınmaq üçün müxtəlif addımlar atmışdır. Xüsusilə, Asiya ölkələri ilə Rusiyanın əlaqələri Rusiya-Ukrayna müharibəsindən sonra daha da artmışdır ki, bu da Rusiyanın sanksiyalara qarşı durmasına yardım etmişdir.

ƏDƏBİYYAT

1. A.Esteves. The Russia-Ukraine confilict- the impact of economic sanctions on Russia- a narrative literature review. MSPJ, vol 9, No 2, 2023. p.107-128.
2. C.Welt. U.S. Sanctions on Russia: Legal authorities and related actions. CRS Report, 2024. p.1-43.
3. F.Demetrius. Explaining the limited impact of sactions on Russia. MPRA, No 122660, 2023. p.1-6.
4. F.Shamsfakhr. How successful have western sanctions against Russia actually been? CEPS, No 3, 2023. p.1-11.
5. J.Pera. The War in Ukraine and the risk of low impact of western sanctions imposed on Russia. EFCER, vol 3, 2023. p.99-124.
6. Macroeconomic survey of the Bank of Russia/https://www.cbr.ru/eng/statistics/ddkp/mo_br/ . [18.01.2025].
7. M.Shagina. Lessons learned from Western sanctions on Russia: Knowing your target well. Hybrid CoE, 2024. p.1-12.
8. N.Mulder. The Economic weapon: The rise ofsanctions as a tool of modern war. London, 2022. p.614.
9. Russian harmful foreign activities sanctions/https://ofac.treasury.gov/faqs/topic/6626 [19.01.2025].
10. Sanctions on energy/https://commission.europa.eu/topics/eu-solidarity-ukraine/eu-sanctions-against-russia-following-invasion-ukraine/sanctions-energy_en. [19.01.2025].
11. Two years of war in Ukraine: Are sanctions against Russia making a difference/https://www.cfr.org/in-brief/two-years-war-ukraine-are-sanctions-against-russia-making-difference [19.01.2025].

АЙНУРА МАМЕДОВА
Преподаватель Бакинского государственного университета

НАРМИН АХМЕДЛИ
Докторант Бакинского государственного университета

САНКЦИИ ПРОТИВ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ (2022-2024)

В статье рассматриваются применение санкций против России западными державами во время российско-украинской войны как в коалиции, так и по отдельности, с целью положить

конец этой войне и подтолкнуть Россию к переговорам. Эти санкции нанести определенный ущерб российской экономике. Также эти санкции оказали сильное влияние как на внутреннюю, так и на внешнюю политику России. По этой причине санкции против Российской Федерации являются основной темой обсуждения в системе международных отношений. Основная цель данной статьи - рассмотреть специфику этих санкций и мер, принимаемых Россией против них.

Ключевые слова: Российская Федерация, Европейский Союз, США, санкции, экономика.

AYNURA MAMMADOVA
Lecturer of Baku State University

NARMIN AHMADLI
Doctoral student of Baku State University

SANCTIONS IMPOSED AGAINST RUSSIAN FEDERATION (2022-2024)

The article discusses the use of sanctions on both coalition and separately to end this war during the Russian-Ukrainian warfare. These sanctions have struck certain graces in Russia's economy. These sanctions have also had a strong impact on both the domestic and foreign policy of Russia. For this reason, sanctions against the Russian Federation are a great topic of discussion in the system of international relations. The main purpose of this article is to investigate the features of these sanctions and the measures taken by Russia against them.

Keywords: Russian Federation, European Union, USA, sanctions, economy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d.Abutalıb Cəlilov, t.ü.f.d. Məmmədağa Baxışov.